# Azərbaycan Dilçilik İnstitutunda müzakirə



AMEA Nəsimi adına Azərbaycan Dilçilik İnstitutunda məşhur şair və fikir adamı, M.Kaşqari adına Beynəlxalq Fondun rəhbəri Elxan Zal Qaraxanlının "Xəzər məkanı" kitabının elmi müzakirəsi keçirilib. Azərbaycan türkologiyası tarixində ciddi araşdırma vasitələrindən olan bu kitabın müəllifi, Elxan Zal "Xəzər dilinin xüsusiyyətləri" adlı geniş məruzə edib. Tədbirdə iştirak edən prof. Nadir Məmmədli, prof. Qəzənfər Paşayev, məşhur yazıçı Səyyad Aran, prof. Sayalı Sadıqova, prof. Qəzənfər Kazımov, dosent Baba Məhərrəmli, prof. Telman Cəfərov, prof. Dos. Teymur Sadıqov, dosent Şəbnəm Həsənli-Qəribova və digər iştirakçılar xəzərlərin Azərbaycanın tarixində və etnogezində oynadıqları xüsusi rolu qeyd etdilər, bu mövzunun bugünkü reallıqlarda xüsusi əhəmiyyət kəsb etdiyini bildirdilər. Qədim yəhudi-türk əlaqələri də tədbirdə geniş polemika mövzusu oldu. Tədbir iştirakçıları prof. N.Məmmədlinin xəzərlərlə bağlı geniş elmi konfrans keçirilməsi ideyasını da yekdilliklə dəstəklədilər.